

***Əli Vahid Çaylı***

# *İslam həmrəylik oyunları*

**Ölkəmizin şan-şöhrəti,
Tükənməzdi bol sərvəti.
Deyim sizə -həqiqəti,
Gözəl olur el toyları,
Bizdə İslam oyunları!**

**Xoş niyyəti, xoş arzusu,
Ətir saçır öz qoxusu.
Bir kimsədən yox qorxusu,
Qəhrəmandı oğulları,
Bizdə İslam oyunları!**

**Qonaq gəlir axın-axın,
Hər ölkədən uzaq-yaxın,
Qardaş olub yaşamağın,
Vardı böyük uğurları,
Bizdə İslam oyunları!**

**Göydə ulduz gilə-gilə,
Dostlar baxır gülə-gülə.
Qəlbi dönür qızıl gülə,
El-el gəzir sorğuları,
Bizdə İslam oyunları!**

**Düşmən görür gücümüzü,
Çiçəklənən ömrümüzü,
Əli Vahid, gülür üzün
Azaldacaq qayğıları,
Bizdə İslam oyunları!**

**14.04.2017**

ədalət.-2017.-5 may.-S.4